# LORAN SEKSİK

# Frans Kafka ölmək istəmir

Fransızcadan tərcümə:
Vüsalə Yarıyeva

qanun nəşriyyatı

# LAURENT SEKSIK

# Franz Kafka ne veut pas mourir

“Öldür məni, yoxsa sən qatilsən!” – bu cümlə Frans Kafkanın dostu, tibb tələbəsi Robert Klopştokdan əlavə morfin dozası istəyərkən söylədiyi son sözlərdir. Yatağının başında duran həyat yoldaşı Dora Diaman gözlərini onun üzünə zilləyib, əziz bacısı Ottla isə Praqada ondan xəbər gözləyir. Robert, Dora, Ottla, – bu roman Kafkanın həyatındakı bu üç əsas personajın hekayəsindən bəhs edir. Fransın varlığı və yaradıcılığı hər üç personajın taleyində silinməz izlər buraxır.

**Laurent Seksik** **FRANZ KAFKA NE VEUT PAS MOURIR**
**Loran Seksik** **FRANS KAFKA ÖLMƏK İSTƏMİR**

Janr: bioqrafiya, roman
Yaş qrupu: 14+
Ölçü: 130x200 mm
Cild: yumşaq
Səhifə sayı: 368

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Fransızcadan tərcümə: | Vüsalə Yarıyeva |
| Redaktor: | Cəlil Cavanşir |
| Korrektor: | Bəsti Məmmədova |
| Qapaq dizaynı: | Rafael Qasım |
| Mətn dizaynı: | Ramin Əli |

Qanun Nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pr., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-606-67-6

© Qanun Nəşriyyatı, 2026
© Éditions Gallimard, Paris, 2023

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

*Həyat yoldaşıma və oğullarıma*

“Kafkanı əfsanəvi obraz kimi təqdim edə bilərik...”

VALTER BENJAMİN

# PROLOQ

Kirlinq. 4 iyun 1924-cü il

Biz – Vyana Universitetinin tibb fakültəsinin məzunu, Kirlinq sanatoriyasının müdiri doktor Hüqo Hofman müəssisənin daxili intizam qaydalarının 29-cu bəndinə uyğun olaraq aşağıdakı bəyanatı təsdiq edir və onu, həqiqətən də, təsdiqləyirik.

*Katibliyin nəzərinə: sənədin surəti Praqadakı professor Pikə, müalicə edən, eləcə də pasiyentin əmisi olan doktor Ziqfrid Löviyə ünvanlanacaq.*

Dünən, 3 iyun 1924-cü il tarixində biz Frans Kafka adlı pasiyentin ölümünü qeydə aldıq. O, 1883-cü il 3 iyul tarixində Praqada Herman və Jüli Kafkanın ailəsinə anadan olub. Ailəsi ilə birlikdə yaşayan Frans Kafka eyni zamanda hüquq elmləri doktoru olub, Praqada, Bohemiya krallığında "İstehsalat qəzalarından sığortalanma" üzrə baş ofisdə çalışmış və həmin vəzifəsindən təqaüdə çıxmışdır.

Onun ölümü qidalanma pozuntuları və dehidrasasiyaya gətirib çıxaran kəskin vərəmli laringitlə əlaqələndirilir.

Qırtlaq da əlavə olmaqla, xəstəlik hər iki ağciyərə, bağırsaqlara və beyin qişasına da yayılmışdı.

Bir neçə gün idi ki, xəstə artıq yemək yeyə bilmirdi.

Müsyö Kafka müəssisəmizə 1924-cü il aprelin 19-da yerləşdirilmişdi.

Bundan əvvəl o, Vyana Universitetinin Xəstəxanasında, professor Markus Hayekin şöbəsində müalicə almışdı. Bu şöbə vərəmin terminal mərhələlərinin, yəni ümidsiz kimi dəyərləndirilən vəziyyətlərin müalicəsinə həsr olunmuş mərtəbədə yerləşirdi. Xəstə qohumlarının xahişi ilə o, həkim məsləhəti olmadan şöbədən ayrılaraq sanatoriyamıza köçürülmüşdü.

Xəstə gəldiyi zaman bizim tərəfimizdən lazımi müayinələrdən keçdi və biz ona aşağıdakı diaqnozu qoyduq:

Kəskin vərəmli laringitlə daha da mürəkkəbləşən ümumiləşdirilmiş inkişaf etməkdə olan vərəm.

Klinik müayinə zamanı:

– sağ ağciyər: yuxarı apikal səviyyədə xırıltılar; orta lobar səviyyəsində sibilyantlar; xırıltılı səs.

– sol ağciyər: üçüncü qabırğaarası boşluqda xırıltılar; alt lobar səviyyədə sibilyantlar.